*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   6 oktyabr 2020-ci il   № 64 (2482)   Qiyməti 30 qəpik


Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və biz haqq yolundayıq

*Oktyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib.*

*AZƏRTAC dövlətimizin başçısının müraciətini təqdim edir.*



- Əziz həmvətənlər.

Bu gün Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndi işğaldan azad edildi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizi ürəkdən təbrik edirəm. Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdıb. Bu qanlı döyüşlərdə həlak olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm.

Uzun illərdən sonra Cəbrayıl şəhəri azad edildi. Cəbrayıl bizimdir!

Dörd il bundan əvvəl Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi yenidən qurulmağa başlamışdır. Uğurlu əməliyyat nəticəsində azad edilmiş yüksəkliklər imkan verdi ki, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə sakinlər qayıtsınlar. Gözəl qəsəbə saldıq. Qəsəbənin açılışında demişdim ki, Cocuq Mərcanlı bizim yenilməz iradəmizin rəmzidir. Cocuq Mərcanlı onu göstərir ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və bizim işğal edilmiş digər torpaqlara qayıdışımız məhz Cocuq Mərcanlıdan başlamışdır. Hesab edirəm ki, bu gün Cəbrayıl rayonunun böyük hissəsinin və Cəbrayıl şəhərinin azad edilməsi xüsusi əhəmiyyət daşıyır.

Bilirsiniz, bir həftədir ki, Azərbaycan öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparır. Döyüş meydanında əsgər və zabitlərimiz qəhrəmanlıq göstərir, düşmənə sarsıdıcı zərbələr endirir, düşməni yerinə oturdur, düşməni torpaqlarımızdan qovur, canı-qanı bahasına. Bu şərəfli missiya tarixdə öz yerini tapacaqdır.

Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, yaradıb, qurub, tikib. Ancaq uzun illər ərzində - 30 ilə yaxındır ki, erməni cəlladları torpağımızı işğal edib, bizim bütün tarixi, dini, mədəni abidələrimizi darmadağın edib dağıdıblar.

Biz bütün şəhərləri bərpa edəcəyik. Ermənilər tərəfindən dağıdılmış bütün məscidlərimizi bərpa edəcəyik. Bu bölgələrə həyat qayıdacaq. Biz ermənilər tərəfindən bizim tarixi adlarımızı dəyişdirib tarixi saxtalaşdırmaq, eyni zamanda, Azərbaycan xalqının tarixi-mədəni irsini silmək cəhdlərinə son qoyduq. Bizim yaşayış məntəqələrinin tarixi adları bərpa edilir və bərpa ediləcəkdir.

Biz öz torpağımızda döyüşürük, vuruşuruq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və biz haqq yolundayıq. Bizim əsgərimiz xilaskar əsgərdir. Çünki öz doğma dədə-baba torpağını işğalçılardan azad edir.

Bu gün cəbrayıllılar, əlbəttə ki, sevinc içindədirlər, necə ki, bütün Azərbaycan xalqı. Dünən bizim qədim yaşayış yerimiz - Suqovuşan qəsəbəmiz işğaldan azad edildi. Bütün Azərbaycan xalqı bu tarixi hadisəni qeyd edirdi, bir-birini təbrik edirdi, göz yaşlarını saxlaya bilmirdi. Bu, sevinc göz yaşlarıdır. 1990-cı illərin əvvəllərində də Azərbaycan göz yaşlarını töküb. Ancaq o, məğlubiyyət göz yaşları idi, o, faciə göz yaşları idi.

Bu gün Azərbaycan xalqı sevinc içindədir. Cəbrayıllılara və bütün Azərbaycan xalqına bu gün azad edilmiş yaşayış məntəqələrinin adlarını sadalamaq istərdim. Bu gün şanlı Azərbaycan Ordusu aşağıdakı yaşayış məntəqələrini azad edib: Cəbrayıl şəhəri, Karxulu kəndi, Şükürbəyli kəndi, Yuxarı Maralyan kəndi, Çərəkən kəndi, Daşkəsən kəndi, Horovlu kəndi, Decal kəndi, Mahmudlu kəndi, Cəfərabad kəndi.

Bu kəndlərin sakinləri, sizə müraciət edirəm, sizin həsrətinizə son qoyulur və bizim digər bütün qaçqın, köçkün soydaşlarımız bilsinlər ki, biz onları da onların dədə-baba torpaqlarına qaytaracağıq. Güc yolu ilə! Biz istəyirdik ki, bu məsələ danışıqlar yolu ilə həll olunsun, səbir göstərirdik. Danışıqlarda həmişə ədalətli mövqedə olmuşuq, bizə mənsub olanı istəmişik. Başqasının torpağında heç vaxt gözümüz olmayıb. Amma demişik ki, bu, bizimdir, xalqımızındır, millətimizindir, bizə qayıtmalıdır, danışıqlar yolu ilə qayıtmalıdır. Amma bu danışıqlar faktiki olaraq münaqişənin dondurulmasına gətirib çıxarmışdır. Yəni, buna hesablanmışdır. Otuz il ərzində danışıqlar gedə bilərmi?! Otuz il ərzində Azərbaycan xalqını belə vəziyyətdə saxlamaq olarmı?! Otuz il ərzində biz ümidlə yaşayırdıq ki, beynəlxalq birlik bu məsələni həll edəcək. Bu məsələnin həlli ilə məşğul olan ölkələr, beynəlxalq təşkilatlar öz sözünü deyəcək. Dünyanın ən ali beynəlxalq orqanı - BMT Təhlükəsizlik Şurası öz qətnamələrinin yerinə yetirilməsi üçün səy göstərəcək. Bu qətnamələr 27 ildir kağız üzərindədir. İyirmi yeddi il ərzində biz bütün dövrlərdə - danışıqların bütün dövrlərində konstruktiv mövqe göstərmişdik, ədalətli mövqe göstərmişdik. Ancaq bunun müqabilində nə gördük? Təcavüzkar daha da azğınlaşıb. Təcavüzkarın tamahı daha da böyüyüb, bizim dədə-baba torpağımıza göz dikib. Nəticədə işğal edilmiş bütün torpaqları qondarma "Dağlıq Qarabağ respublikası"na aid edib, yeni xəritələr dərc edib və bu xəritələrdə işğal edilmiş bütün ərazilər Dağlıq Qarabağ kimi təqdim edilir. Ondan sonra nə oldu? Ondan sonra bəyan etdilər ki, bir qarış torpağı Azərbaycana qaytarmayacağıq.

**(Ardı 2-ci səhifədə)**

Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və biz haqq yolundayıq

(Əvvəli 1-ci səhifədə)

Biz demişdik ki, axı bu, danışıqlar predmetinə zidd olan məsələdir. Axı danışıqlarda bizim əsas ümidverici məqamımız o idi və orada göstərilirdi ki, işğal edilmiş torpaqlar mərhələli yollarla Azərbaycana qaytarılacaq. Biz də buna razılıq vermişdik ki, mərhələli yollarla qaytarılsın, sülh yolu ilə qaytarılsın. Bir mərhələdə 5 rayon qaytarılsın, ikinci mərhələdə 2 rayon qaytarılsın, sonra azərbaycanlılar Dağlıq Qarabağa qayıtsınlar, Şuşaya qayıtsınlar, ondan sonra Azərbaycan və erməni xalqları birlikdə yaşasınlar, necə ki, vaxtilə biz yaşamışıq. Bu, ədalətli mövqedir. Bu, beynəlxalq hüququn bütün normalarına uyğun olan bir mövqedir. Biz nə istəmişik ki? Bunu istəmişik və buna haqqımız çatırdı və çatır. Amma nə gördük?! Gördük ki, Azərbaycan xalqının iradəsini sındırmaq istəyirlər. Gördük ki, bizə qarşı yeni müharibə açılır, bizi yeni müharibə ilə hədələyirlər. Gördük ki, iyul ayında heç bir səbəb olmadan bizim Tovuz şəhərimiz və digər yaşayış məntəqələrimiz atəşə tutuldu, hərbçilərimiz həlak oldu, mülki vətəndaş həlak oldu. Gördük ki, avqust ayında diversiya qrupu göndərildi və o diversiya qrupunun başçısı zərərsizləşdirildi, saxlanıldı. İndi ifadələr verir, deyir göndərilib ki, terror aktları törətsin. Budurmu danışıqlar prosesinə sadiqlik?! Sonra isə, Ermənistanın baş naziri cəfəng fikirlər ortaya atır, tarixi saxtalaşdırır, öz xalqını, beynəlxalq ictimaiyyəti aldatmağa çalışır. Bir il bundan əvvəl o, "Qarabağ Ermənistandır və nöqtə" deməklə bütün danışıqlar prosesinə zərbə vurdu, onu mənasız etdi. Danışıqların formatını dəyişdirmək cəhdləri - "Qondarma, oyuncaq xunta rejimi ilə Azərbaycan danışıqlar aparmalıdır" sözləri danışıqlar prosesinə tamamilə ziddir. Adekvat cavab aldımı? Mən Minsk qrupunun həmsədr ölkələrinə, həmsədr olan səfirlərə, digər beynəlxalq təşkilatlara, Avropa İttifaqının nümayəndələrinə dəfələrlə demişdim ki, Ermənistana təsir edin, sanksiyalar tətbiq edin, təzyiq edin. Belə olmaz. Əgər güclü təsir olmasa, Ermənistan daha da azğınlaşacaq, daha da quduracaq, yeni iddialar ortaya atacaq. Eşitmədilər məni. Mən istəyirdim bu məsələ sülh yolu ilə həll olunsun. Eşitmədilər. Hesab edirdilər ki, Azərbaycan xalqı və mən - Azərbaycan Prezidenti bu vəziyyətlə barışacağam?! Hesab edirdilər ki, bizim müqəddəs şəhərimiz olan Şuşa erməni tapdağında qalacaq, mən bununla barışacağam?! Azərbaycan xalqının tarixinə zərbə vuran erməni cəlladları ilə biz danışıqlarmı aparmalıyıq? Azərbaycan xalqı təhqir edildi, Şuşada qondarma rejimin başçısı özünə "andiçmə mərasimi" keçirmişdir. Baxım görüm, indi andiçmə mərasimi harada keçiriləcək, yas mərasimini keçirəcək! İndi qaçıb siçan kimi gizlənib. Çıxsın ortalığa! Ermənistanın baş naziri gedib Şuşada, Cıdır düzündə rəqs edir, hesab edir ki, biz bununla barışacağıq?! Səhv edir! Heç vaxt biz bununla barışmayacağıq. Qondarma "Dağlıq Qarabağ respublikası"nın parlamentinin Şuşaya köçürülməsi nə deməkdir?! Yenə də Azərbaycan xalqını təhqir etmək cəhdidir. Cəbrayıla Ermənistandan yeni yolun çəkilməsi nə deməkdir?! O deməkdir ki, orada qanunsuz məskunlaşma aparılacaq. Artıq Livandan, başqa yerlərdən erməniləri gətirirlər, köçürürlər bizim qədim şəhərimizə, Şuşada yerləşdirirlər, televiziyada göstərirlər, beynəlxalq konvensiyaları pozurlar, Cenevrə Konvensiyasını tapdalayırlar. Bunlara söz deyən var?! Tapşırıq vermişəm bütün bizim xarici diplomatik orqanlara - məsələ qaldırın, BMT-də, ATƏT-də, Avropa İttifaqında, başqa təşkilatlara, deyin ki, bu, qanunsuzdur! Qanunsuz məskunlaşma cinayətdir! Buna reaksiya oldu?! Minsk qrupu bir açıqlama verdimi?! Vermədi! Avropa İttifaqı verdimi?! Vermədi! Dedi ki, bu, bizi maraqlandırmır. Maraqlandırmırsa, indi də maraqlandırmasın. İndi nə əl-ayağa düşmüsünüz? İndi nə hoqqalardan çıxırsınız? Azərbaycana qarşı iftiralar irəli sürülür, bəzi ölkələr, Avropa ölkələri bizi ittiham edirlər. Getsinlər güzgüyə baxsınlar. Bu ittihamların heç bir əsası yoxdur ki, kimsə imkan verməz Azərbaycan Dağlıq Qarabağı fəth etsin. Dağlıq Qarabağ bizimdir, bizim torpağımızdır, biz oraya qayıtmalıyıq, qayıdırıq və qayıdacağıq!

Ona görə indiki vəziyyətdə birinci günahkar Ermənistan rəhbərliyidir. Eyni zamanda, bu məsələyə biganə yanaşan və daim Ermənistanın tərəfini saxlayan və bu işğalı əbədi etmək istəyən bəzi ölkələrin dairələridir. Azərbaycan özü bu məsələni həll edir və mən 27 sentyabr hadisələrindən əvvəl Ermənistana demişdim, gəl, təkbətək vuruşaq. Baxaq kim-kimdir! İndi nə oldu? Paşinyan hər gün bir dünya liderinə zəng edir. Hər gün! Mən heç kimə zəng etməmişəm, heç bir liderə zəng etməmişəm. Təmaslarım olub, mənə zəng ediblər. Amma o, adam qalmayıb ki, zəng etməsin, yalvarmasın, emissar göndərməsin, ağlamasın, onların ayağına yıxılmasın. Bax, budur, bunun sonu. Əgər bizimlə normal dildə danışsaydı, bizim müqəddəs şəhərimizi mundarlamasaydı, əlbəttə, biz ümidlərlə yaşayıb çalışardıq ki, bu məsələ danışıqlar yolu ilə həll olunsun. Amma hər addım təxribat, hər addım təhqir və hesab edir ki, biz bununla barışacağıq?! İndi biz göstərdik kim-kimdir. İti qovan kimi qovuruq onları! Azərbaycan əsgəri onları iti qovan kimi qovur! İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır! Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların postları bizim əlimizdədir! Onların tanklarını biz sürürük! Onların digər silahlı texnikaları bizim əlimizdədir, yük maşınları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!

Ermənistan rəhbərliyi yaxşı düşünsün, hələ ki, gec deyil. Bizə yeddi şərt irəli sürür. Sən kimsən ki, bizə şərt qoyasan?! İndi baxım görüm nə şərt qoyursan bizə! Yıxılıb diz çöküb yalvarırsan ki, atəşkəs bərpa olunsun. Atəşkəs Ermənistanın baş nazirinin xahişi ilə 2 il ərzində bərpa olunmuşdu. Məndən xahiş etmişdi ki, daxildə vəziyyət ağırdır, oradan-buradan məni sıxırlar, mənə vaxt verin, mən bu məsələni həll edəcəyəm, mən yeni fikirlərlə gəlmişəm. Mən keçmişdə nə olub hamısının üstündən xətt çəkmişəm, imkan verin, vaxt verin. Dedim yaxşı. Nə oldu? Bir ildən sonra çıxış edib deyir ki, "Qarabağ Ermənistandır". İndi desin "Qarabağ Ermənistandır". İndi mənə olan zənglər və zənglər əsnasında gedən söhbətlər, əlbəttə ki, konfidensial xarakter daşıyır və bəzi hallarda indi soruşurlar bəs, sizin şərtiniz nədir? Mənim şərtim birdir - çıxsın bizim torpaqlarımızdan, çıxsın, qarşıdurma dayansın. Amma sözdə yox, əməldə. Desin ki, mən Azərbaycanın ərazi bütövlüyünü tanıyıram, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən işğal edilmiş torpaqlardan qoşunlarımızı çıxaracağam, necə ki, baza prinsiplərində bu, təsbit edilib. Desin ki, mən Azərbaycan xalqından üzr istəyirəm və desin ki, Qarabağ Ermənistan deyil. Sonuncu şərt budur ki, qrafik versin, işğal edilmiş torpaqlardan erməni silahlı qüvvələrinin çıxarılması cədvəli verilsin bizə. Onda biz, əlbəttə ki, atəşkəs rejimini bərpa edəcəyik. Halbuki indi şiddətli döyüşlər getdiyi zaman bunu etmək çətindir. Çünki biz dayansaq, onlar dayanmayacaq. Amma hər halda, bunun üzərində işləmək olar. Yoxsa ki, siz dayanın, onlara vaxt verin. Nəyə vaxt verək? Vaxt verək ki, güc toplasınlar? Vaxt verək ki, yenə də adam toplasınlar bizə hücum etsinlər? Bizi belə sadəlövh sayırlar bunlar? Vaxt verin ki, bunlar gəlsinlər danışıqlara. Mən nə lazımdır dedim, vəssalam.

Bu gün Cəbrayılın işğaldan azad edilməsi Ermənistana, onun havadarlarına dərs olmalıdır. Mən hadisələrdən əvvəl demişdim. Orada təxribat törətdi, dərs verdik, dərs olmadı. Burada təxribat törətdi, dərs verdik, dərs olmadı. Nəhayət, bu dəfə təxribat törətdi, dərs verdik, indi dərs oldu.

Biz haqq-ədalət tərəfindəyik. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğruldurug və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

# Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva bir aylıq əməkhaqqı məbləğində vəsaiti Silahlı Qüvvələrə Yardım Fonduna ianə ediblər

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva bir aylıq əməkhaqqı məbləğində vəsaiti Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna ianə ediblər.*

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fondu Prezident Heydər Əliyevin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin inkişafı və maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə formalaşıb.

Fondun əsasnaməsinə əsasən, Silahlı Qüvvələrin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycan ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslər könüllü ödəmələr həyata keçirə bilərlər.

# Prezidentin Mətbuat Xidmətinin məlumatı

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyev bu gün 1-ci Ordu Korpusunun komandiri general-mayor Hikmət Həsənovu Madagizin işğaldan azad olunması münasibətilə təbrik etdi. Ona tapşırıq verdi ki, Ali Baş Komandanın təbriklərini korpusun bütün şəxsi heyətinə çatdırsın.

Hikmət Həsənov Ali Baş Komandana öz təşəkkürünü bildirdi, Prezidenti əmin etdi ki, 1-ci Ordu Korpusu Ali Baş Komandan tərəfindən qarşısında qoyulmuş bütün vəzifələri şərəflə yerinə yetirəcəkdir.

* * *

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyev oktyabrın 4-də Birlik komandirləri - general-mayor Mayis Bərxudarovu, general-mayor Hikmət Mirzəyevi və onların rəhbərlik etdikləri şəxsi heyəti Cəbrayıl şəhərinin və rayonunun 9 kəndinin işğaldan azad olunması münasibətilə təbrik edib. Onlara tapşırıq verib ki, Ali Baş Komandanın təbriklərini korpusların bütün şəxsi heyətinə çatdırsınlar.

Mayis Bərxudarov və Hikmət Mirzəyev Ali Baş Komandana öz təşəkkürlərini bildirib, Prezidenti əmin ediblər ki, qarşıya qoyulmuş bütün vəzifələri bundan sonra da şərəflə yerinə yetirəcəklər.

# "Ermənistan ərazisindən Azərbaycan ərazisinə atəş açılması açıq təxribat xarakteri daşıyır"

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Gəncə şəhərinin Ermənistan ərazisindən ağır artilleriya atəşinə tutulması ilə bağlı bəyanat yayıb.

General-polkovnik Zakir Həsənov bildirib: "Ermənistan ərazisindən Azərbaycan ərazisinə atəş açılması açıq təxribat xarakteri daşıyır və döyüş bölgəsini genişləndirir".

# Ordumuzun əks-hücum əməliyyatları davam edir



**2 oktyabr 2020-ci il.**

Düşmən Ermənistan ərazisindən Şəmkirin Sabirkənd, işğal olunmuş ərazilərimizdən isə Ağdamın Quzanlı yaşayış məntəqələrini raket atəşinə tutur.

* * *

Ermənistan silahlı qüvvələri Bərdə rayonunun Əmirli, Tovuz rayonunun Ağdam və Ağdam rayonunun Quzanlı yaşayış məntəqələrini artilleriya atəşinə tutur.

* * *

Düşmənin yüksək dağ zirvəsində yaratdığı dayaq məntəqəsinə silah-sursat çatdıran təminat vasitələri və döyüş texnikaları məhv edilib.

* * *

Ermənistan ərazisindən Şəmkirin Sabirkənd yaşayış məntəqəsinə atılan 10-a yaxın raket "Toçka-U" taktiki raket kompleksindən buraxılıb.

**3 oktyabr 2020-ci il.**

Cəbhədə vəziyyət gərgin olaraq qalır. Gecə ərzində cəbhənin müxtəlif istiqamətlərində düşmənin döyüş aktivliyinin qarşısı alınıb və ona sarsıdıcı zərbələr endirilib.

Bütün cəbhə boyu gərgin döyüşlər davam edir.

* * *

Gecə ərzində Ermənistan silahlı qüvvələri tərəfindən Tərtər şəhəri, rayonun Səhləabad, Qəzyan, Qapanlı, Qaynaq, Əskipara, Hüsənli, Ağdam rayonunun Ayaq Qərvənd, İmamqulubəyli, Qaradağlı, Təzəkənd, Ağcabədi rayonunun Muğanlı, Qiyaməddinli, Rəncbərlər və Goranboy rayonunun Tapqaraqoyunlu kəndi intensiv artilleriya atəşinə tutulub.

Hazırda Ağdam rayonunun Quzanlı, Əlibəyli və Ayaq Qərvənd kəndləri artilleriya atəşinə tutulur. Ordumuz tərəfindən düşmənə qarşı qəti cavab tədbirləri görülür.

* * *

Bütün cəbhə boyu şiddətli döyüşlər davam edir. Cəbhənin müxtəlif istiqamətlərində yaşayış məntəqələrimiz düşmənin intensiv artilleriya və raket atəşinə məruz qalıb. Azərbaycan Ordusunun bölmələrinin qətiyyətli cavab tədbirləri nəticəsində yaşayış məntəqələrimizi atəşə tutan Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətlərdə atəş mövqeləri susdurulub, düşmənə sarsıdıcı zərbə endirilib.

Şiddətli döyüşlər zamanı qoşunlarımızın şəxsi heyətinin şücaəti nəticəsində Tərtər rayonunun Suqovuşan və Talış yaşayış məntəqələri, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndləri işğaldan azad olunub.

Suqovuşan-Ağdərə istiqamətində gedən döyüşlər zamanı Ermənistan silahlı qüvvələrinin 77-ci tank taborunun 4 tankı məhv edilib, 3 tankı isə qənimət götürülüb.

Ermənistan silahlı qüvvələrinin Ağdərə istiqamətində yerləşən 5-ci dağatıcı alayının müdafiə sahəsinə qoşunlarımız tərəfindən artilleriya zərbələrinin endirilməsi nəticəsində alayın 4 ədəd avtomobil texnikası məhv edilib, şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan var. 5-ci dağatıcı alayın bir neçə bölməsinin şəxsi heyəti döyüş mövqeyini tərk edərək qaçıb.



**4 oktyabr 2020-ci il.**

Xankəndi şəhərindən şimalda Ballıcada yerləşən hərbi hissədən Azərbaycan Ordusunun bölmələrinin mövqeləri və yaşayış məntəqələrimiz son iki gün ərzində intensiv atəşə tutulur.

Beynəlxalq təşkilatların nümayəndəlikləri vasitəsilə düşmənə bir neçə dəfə xəbərdarlıq edilməsinə baxmayaraq bu hələ də davam edir.

Düşməni növbəti dəfə xəbərdar edirik ki, Ballıcada yerləşən düşmən mövqelərinə qarşı tərəfimizdən adekvat tədbirlər görüləcək.

* * *

Ermənistan silahlı qüvvələri hazırda Xankəndi ərazisindən Tərtər şəhərini və Füzuli rayonunun Horadiz şəhərini raket atəşinə tutur.

Azərbaycan Ordusu tərəfindən düşmənə qarşı adekvat cavab tədbirləri görülür.

* * *

Ermənistan ərazisindən Füzuli rayonunun ərazisi raket atəşinə, işğal altında olan ərazilərimizdən isə Ağdam və Tərtər rayonunun kəndləri düşmənin artilleriya atəşinə tutulur.

* * *

Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə atəşə tutulub. Düşmən Gəncə şəhərini Ermənistan ərazisindən atəşə məruz qoyub.

* * *

Erməni tərəfinin guya Gəncə şəhərindəki hərbi obyektlərin vurulması ilə bağlı yaydığı xəbər təxribat xarakteri daşıyır və yalandır.

Düşmən tərəfindən açılan atəş nəticəsində dinc sakinlərə, mülki infrastruktura və qədim tarixi tikililərə ziyan dəyib.

* * *

Hazırda düşmən tərəfindən Ağcabədi rayonunun Sarıcalı, Ağdam rayonunun Baharlı, Çiraqlı, Üçoğlan və Bərdə rayonunun Şahvəllər yaşayış məntəqələri intensiv artilleriya atəşinə tutulur, yaralanan var.

* * *

Azərbaycanın Hərbi Komandanlığı işğal altında olan ərazilərimizdə yaşayan dinc əhaliyə müraciət etdi.

Azərbaycanın Hərbi Komandanlığı döyüşlər gedən istiqamətlərdəki yaşayış məntəqələrində məskunlaşan ölkəmizin erməni vətəndaşlarına müraciət edərək bildirir ki, Azərbaycan Ordusu dinc əhalini, mülki obyektləri və infrastrukturu hədəfə almır.

Azərbaycan Ordusunun hədəfi işğal olunmuş ərazilərimizdəki atəş mövqeləri, hərbi obyektlər və hərbi infrastrukturdur. Bununla əlaqədar bu ərazilərdə məskunlaşan mülki əhalini döyüşlər gedən bölgələrdən uzaq durmağa çağırırıq.



Bildiririk ki, onların ağır döyüşlərdən ziyan çəkməməsi və ərazidən maneəsiz təxliyəsi üçün tərəfimizdən müvafiq şərait yaradılacaq. Mülki əhali ilə Cenevrə Konvensiyasının tələblərinə uyğun rəftar olunacaq və onların insan hüquqları qorunacaq.

* * *

Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun 2010-cu il iyunun 18-də təkbaşına döyüşərək xeyli sayda düşmən qüvvəsini məhv etdiyi posta Azərbaycan Bayrağı sancılıb.

Artıq həmin postda Azərbaycan Bayrağı dalğalanır!

* * *

Cəbrayıl istiqamətində düşmənin xeyli sayda silah-sursatı, döyüş və avtomobil texnikası qənimət götürülüb.

* * *

Azərbaycan Ordusunun hərbi qulluqçuları döyüş əməliyyatları aparılan ərazilərdə "Beynəlxalq silahlı münaqişə tərəflərinin hörmət etməli olduqları beynəlxalq humanitar hüquq normalarına dair Memorandum"un tələblərinə uyğun fəaliyyət göstərir.

Hərbçilərimiz hərbi əməliyyatlarda iştirak etməyən şəxslərin mühafizəsini təşkil etmək, onlara tibbi və digər yardım göstərmək, eləcə də itkin düşmüş və vəfat etmiş şəxslərlə davranış qaydalarına riayət etmək bacarığına malikdirlər.

Bundan başqa, hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusu tərəfindən mülki əhali və infrastrukturun hərbi qulluqçu və obyektlərdən fərqləndirilməsi həyata keçirilir, mülki əhali və infrastrukturun hərbi zərbələrdən qorunması təmin edilir.

Eyni zamanda, Azərbaycan Ordusu tərəfindən şəraitin imkan verdiyi hallarda mülki əhalinin qabaqcadan məlumatlandırılması, həmçinin öz nəzarətində olan əhalinin düşmən zərbələrindən qorunması tədbirləri həyata keçirilir.

* * *

Ermənistan silahlı qüvvələri tərəfindən Mingəçevir şəhəri ərazisinə raket zərbələri, Tərtər şəhərinin ərazisinə isə artilleriya zərbələri endirilib, yaralananlar var.

**5 oktyabr 2020-ci il.**

Səhər saatlarında Azərbaycan Hava Hücumundan Müdafiə Qüvvələrinin Radiolokasiya sistemlərinin texniki vasitələri Ermənistanın Cermuk, Qafan və Berd rayonları ərazisində yerləşən start mövqelərindən Azərbaycan ərazisinə atılan raket buraxılışını qeydə alıb.

Bütün cəbhə boyu sıxışdırılan düşmən artıq bir neçə gündür ki, Ermənistan ərazisindən Azərbaycan ərazisində əhalinin kompakt yaşadığı məntəqələrə, mülki infrastruktura sistematik raket zərbələri endirir.

Eyni zamanda, Ermənistanın Müdafiə Nazirliyi Azərbaycan ərazisinin Ermənistandan atəşə tutulması faktını inkar edir və bunun işğal olunmuş ərazilərimizdən həyata keçirildiyini bildirir.

Ermənistanın bu cür məsuliyyətsiz və cinayətkar hərəkəti məqsədyönlü şəkildə Azərbaycanı cavab tədbirləri görməyə təhrik edir.

* * *

Hazırda Beyləqan, Bərdə və Tərtər şəhərləri Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulur.

Adekvat tədbirlər görülür.

* * *

Hazırda Füzuli rayonunun Horadiz şəhəri, Ağcabədi rayonunun kəndləri, Tərtər şəhəri və rayonun kəndləri, Goranboy və Göygöl rayonlarının əraziləri Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulur.

Düşmənə qarşı adekvat tədbirlər görülür.

* * *

Ermənistanın Berd rayonu ərazisindən Gəncə şəhəri atəşə tutulur.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham ƏLİYEV:

# Vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir

*Sentyabrın 27-dən səhər saatlarından düşmənin törətdiyi təxribatın qarşısı şanlı Azərbaycan Ordusu tərəfindən qətiyyətlə alındı. Əks-hücum əməliyyatı nəticəsində şəxsi heyətimiz misilsiz qəhrəmanlıq və rəşadət nümayiş etdirərək tarixi torpaqlarımızda irəliləyir. Xalqımızı qələbə xəbərləri ilə müjdələyir. Belə bir məqamda qəhrəman oğullarımızın döyüş təəssüratlarını bölüşməyi özümüzə mənəvi borc bilirik.*

**Baş gizir Yaqub Şeydayev:**

- Vətənin qoruyucusu kimi şərəfli bir vəzifəni həyata keçiririk. Hər bir müstəqil dövlətin mövcudluğunun, təhlükəsizliyinin təminatçısı ordudur. Bu gün torpaqlarımız ermənilərin işğalı ilə üzləşdiyindən xalqın ümid yeri yenə də orduyadı. Xalqımız ordumuzun gücünə bələddi və yaxşı bilir ki, onun Silahlı Qüvvələri müharibə yolu ilə Qarabağımızı düşmən tapdağından azad etməyə qadirdi. Bu gün döyüş meydanında əldə etdiyimiz qalibiyyətlə bunu açıq şəkildə sübut edirik. Xalqımız ümidlidi ki, Azərbaycan Ordusunun şəxsi heyəti üzərində gəzdiyi bu torpağı qoruyacaq və zamanında işğaldan azad edəcək.





Sentyabrın sonunda başlayan döyüşlər Azərbaycana yeni döyüş əzmi, qalibiyyət ruhu gətirdi. Qəhrəman Azərbaycan oğulları düşmənə layiqli cavab verməklə yanaşı, işğalda olan mühüm strateji əhəmiyyətə malik yüksəklikləri və yaşayış məntəqələrini azad etdilər. Özümü ona görə xoşbəxt sanıram ki, uzun illərin ayrılığından sonra düşmən işğalında olan torpaqlarımızın tarixi sahibinə qovuşmasında mənim də payım oldu. Azad olunan ərazilərdə müqəddəs bayrağımız dalğalandı. İllərdir bu xoşbəxt anların həsrətindəydim. Bir bayatıda deyildiyi kimi: "İl var bir günə dəyməz, gün var min aya dəyər". O gün həmin gün idi. Ancaq sevincli günlərimiz, Qarabağımızın azad günləri hələ qabaqdadı.

Bu döyüşlərə qatılan hər bir Azərbaycan zabiti, giziri və əsgəri yalnız bir amal uğrunda vuruşur - irəli getmək və qələbə qazanmaq. Tarixi torpaqlarımız bizi özünə çəkirdi. Yaşayış məntəqələrimizi azad edib irəlilədikcə göz yaşlarımıza hakim ola bilmirdik. İşğalda olan digər rayonlarımızda da bayrağımızı dalğalandırmaq istəyi bizi döyüşə ruhlandırırdı. Döyüşlər Qarabağ tamamilə azad olunanda bitəcək. Bu döyüşlərin nəticəsi göstərdi ki, Azərbaycan əsgəri qürurlu, cəsarətli və əyilməzdir. Bu döyüşlər Azərbaycan əsgərinin yenilməzliyini, eyni zamanda, Azərbaycan Ordusunun işğalda olan torpaqlarımızı azad etməyə qadir olduğunu sübut etdi.

Bu gün Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan ordumuz bütöv və müstəqil Azərbaycan naminə bütün gücünü səfərbər edib, onun şəxsi heyəti isə Vətənin azadlığı naminə qanını və canını əsirgəmir. Prezidentinə, Ali Baş Komandanına arxalanan, xalqın ona göstərdiyi etimaddan güc alan Azərbaycan Ordusu tezliklə Azərbaycan xalqına Qələbə bəxş edəcək.

**Gizir Kənan Umudov:**

- İllər ötəcək, əsrlər keçəcək, nəsillər dəyişəcək, ancaq belə oğullara malik olan Azərbaycan daim yaşayacaq. Qeyrətini çəkən oğul və qızlarının sayəsində inkişaf edən, hara getsək də könül rahatlığı tapdığımız yeganə müqəddəs məkan Vətənimizdir. Azərbaycan dediyimiz, dünyaya dəyişmədiyimiz sevgi mənbəyimiz olan bu müqəddəs məkanın qorunması və azad olunması naminə sentyabrın 27-dən başlayaraq getdiyim yolda Azərbaycan Ordusunun bir parçası olduğum üçün özümü xoşbəxt hiss edirəm. Bu gün Azərbaycan Ordusunun bütün hərbi qulluqçularının haqqı çatır ki, desin, biz bu Vətənə mənsubuq. Fəxrlə deyə bilərik ki, Aprel döyüşlərinin, Günnüt zəfərinin davamını gətirən qəhrəman oğullarımız və xalqın güvənc yeri olan güclü ordumuz tezliklə Laçına, Xankəndiyə, Şuşaya qədəm basacaq.

Bizi sevindirən digər məqam xalqımızın bizə olan sevgisi və dəstəyidir. Belə xalqa, ancaq qələbə yaraşır. Rəşadətli ordumuzun qələbəsindən ruhlanan xalqın sevgisi və dəstəyi təkcə düşməni deyil, onun havadarlarını da susmağa məcbur etdi. Düşmənin neçə illərdən bəri möhkəmləndirdiyi istehkamları, tutduğu hərbi əhəmiyyətli yüksəklikləri bir neçə sərrast zərbə ilə darmadağın oldu. Bir daha dünyaya bəyan oldu ki, Ali Baş Komandanımızın dediyi kimi, ölkəmizlə silah gücü ilə danışmaq mümkün deyil və Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu ola bilməz!

Tariximizə növbəti şərəfli səhifələr yazan oğullarımız, o cümlədən şəhidlərimiz haqqında vaxt gələcək kitablar yazılacaq, mahnılar bəstələnəcək. Amma şah əsəri bizlər birlikdə yazdıq. Bu şah əsərin adı Vətəndir! Şəhid qanı ilə qorunan və işğaldan azad olan Vətən isə əbədi var olur!

Əldə etdiyimiz uğurlar onu sübut edir ki, Azərbaycan əsgərinin bütün iradəsi, ağlı, qabiliyyəti və peşəkarlığı Vətən torpağını qorumaq və azad etmək fəlsəfəsi üzərində formalaşıb. Azərbaycan Ordusu psixoloji cəhətdən məhz bu səbəbə görə yenilməzdir. Çünki özünümüdafiə hər bir ölkənin təbii haqqıdır, bunun alternativi yoxdur. Ona görədir ki, bu gün erməni əsgəri Azərbaycan əsgərinin qətiyyəti, inadı, əzmkarlığı qarşısında tab gətirməyərək qaçır.

Sübuta ehtiyacı olmayan bir həqiqət var - hər şeyin bir sonu olduğu kimi, bu müharibənin də bir sonu olacaq. Bu gün o sonun başlanğıcıdır. Ali Baş Komandanımızın da əminliklə dediyi kimi, o gün mütləq gələcək!

**Gizir İzzət Qasımov:**

Hər bir insan yaşadığı ömrün tarixini özü yazır. O kəslər ki, ömrünü xalqına, millətinə, yaşadığı cəmiyyətin, onun ordusunun inkişafına həsr edir, bu ömür əbədi yaddaşlara həkk olunur. Sözsüz ki, örnək ola biləcək bir ömür yazmağın özü fədakarlıq və hünərdir. İndi hünər, fədakarlıq, tarix yazmaq vaxtıdır.

Sentyabrın 27-dən səhər saatlarından düşmənin törətdiyi təxribatın qarşısı Azərbaycan Ordusunun şəxsi heyəti tərəfindən layiqli şəkildə alındı. Bu döyüşlər Aprel, Günnüt zəfərlərinin davamı, Böyük Qələbənin başlanğıcı oldu. Şəxsi heyətimiz tərəfindən əldə edilən uğurlar onu göstərir ki, bizim üçün yalnız bir ali ölçü, bir amil, bir dəyər var - Vətən! Vətən naminə yaşamaq və xidmət etmək şərəfdir. Biz hərbi qulluqçular üçün harada çalışmağımızdan asılı olmayaraq başlıca istək Vətəni göz bəbəyimiz kimi qorumaqdır. Bizim üçün Vətən amilindən uca, fəxarətli bir məqam olmayıb. Bu gün də belədir. Döyüşçü yoldaşlarımız döyüş meydanında yüksək qəhrəmanlıq nümunələri sərgiləyirlər. Şəxsi heyətin mənəvi-psixoloji və döyüş hazırlığı imkan verir ki, tezliklə tarixi torpaqlarımızı işğaldan azad edək.

Bu gün iftixar hissi keçiririk və bütün dünyaya bəyan edirik ki, müstəqil Azərbaycan dövlətinin ona layiq, onun müstəqilliyini qorumağa və möhkəmləndirməyə qadir olan güclü ordusu var. Böyük Qələbə qazanacağıq. Bunun üçün ordumuzun vətənpərvər, Vətəninə, müstəqil dövlətinə sədaqətli əsgərləri və zabitləri var.

Torpaqlarımızın azadlığı uğrunda vuruşmaq bizim haqq işimizdir. Azərbaycan Ordusu Aprel döyüşlərində, Günnüt zəfərində düşmənə yerini göstərdi, bu gün də həmin sarsıdıcı zərbələr davam edir. Bunun günahkarı ermənilər özləridirlər. Bu qələbələr Azərbaycanın qətiyyətli və güclü Ali Baş Komandanının rəhbərliyi altında qüdrətli ordusunun formalaşdığını və xalq-dövlət birliyinin tamamilə yeni çalarlarını ortaya qoydu. Artıq Azərbaycan dövləti güclü dövlətdir, ordusu da güclü ordudur. Azərbaycan Ordusunun bütün şəxsi heyəti düşməni məhv etməyə hazırdı. Hələ ki, müharibə başa çatmayıb. Müharibə torpaqlarımız işğaldan azad ediləndən sonra başa çatacaq.



Tezliklə hərbi qulluqçularımızın sayəsində Ali Baş Komandanımızın əmri reallaşacaq, torpaqlarımız işğaldan azad olunacaq. Azərbaycanın üçrəngli bayrağı tezliklə, Qarabağımızda dalğalanacaq!

(Ardı 5-ci səhifədə)

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham ƏLİYEV:

# Vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir

(Əvvəli 4-cü səhifədə)

**Zabit Orxan Rüstəmov:**

- Erməni işğalçıları ordumuzun Aprel qələbəsindən aldığı ağır zərbədən daha ağırını alıb və alacaq. Mənfur niyyətlərindən əl çəkməyən düşmən təmas xəttində və Ermənistan-Azərbaycan sərhədində təxribatlar törətməklə yenidən cəbhədə gərginliyi artırdı. Düşmən 27 sentyabr tarixində yenə də öz xain xislətinə xas təxribata əl atdı. Ermənilər layiq olduğu cavabı özü istədi. Ordumuz əks-həmlə hücumu ilə düşmənə sarsıdıcı zərbələr endirdi. Qısa müddət ərzində bir sıra strateji əhəmiyyətli ərazilər düşməndən təmizləndi. Düşmənə ağır zərbələr endirən bölmələrimizdə döyüş əzmi yüksəkdir. Şəxsi heyət ruh yüksəkliyi ilə döyüşləri davam etdirir. Bu günlər illərdir erməni faşistlərinin işğalında olan torpaqlarımızın azad olunması xəbərləri hər birimizi sevindirir, qürurlandırır. Təmas xəttinə yaxın ərazidə yaşayan əhali ordumuza güvənərək bu ağır günlərdə belə evlərini tərk etmək fikrində olmadıqlarını söyləyirlər.



Həqiqətən də, bu günlər qəlbən doğma Vətəninə bağlı olan insanların qürur keçirəcəyi günlərin yaşandığının şahidi oluruq. Bölmələrimiz tərəfindən atılan mərmilər düşmənin hərbi təyinatlı obyektlərini, texnikalarını dağıtmaqla yanaşı, onların "böyük Ermənistan" xülyalarını, yersiz torpaq iddialarını da darmadağın etdi və edir. Bölmələrimizin azad etdiyi ərazilərdə köhnə, yararsız vəziyyətə düşmüş düşmən postlarına baxış keçirərkən onların nə qədər şəraitsiz bir yerdə xidmət etdiklərinin və yaşadıqlarının şahidi olduq. El arasında belə bir fikir var: "Heyvanı bağlasan, heç heyvan da orada qalmaz". Amma uzaq, yaxın tarixə nəzər salarkən düşmənin xalqımıza qarşı törətdiyi qeyri-insani hərəkətlərini xatırlayanda anlayıram ki, onlar haqq elədiyi şəraitdə yaşayırlar. Döyüşdükləri silahlara baxıb gülürdük. Qarşımızda köhnə sovet istehsalı olan silahları görürdük. Hansı ki, bu gün o silahlar öz vaxtını bitirmiş hesab olunur. Hansı ki, bizim babalarımız İkinci Dünya müharibəsində bu silahlardan alman faşizmini məhv etmək üçün geniş istifadə ediblər. Bu gün birmənalı şəkildə deyə bilərik ki, arsenalı dünyanın ən müasir silahları ilə təchiz olunmuş ordumuzla düşmən ordusunun silahlanmasında yerlə göy qədər fərq var. Hər şeydən öncə Azərbaycan əsgərinin döyüş ruhu çox yüksəkdir.

Bu gün xalqımızın ürəyi Qarabağla döyünür, nəbzi Qarabağla vurur. Bu günlər xalqımız "Hər şey cəbhə üçün, hər şey Qələbə naminə" şüarı ilə yaşayır. Lakin düşmən ordusunun əsgəri bilmir ki, nə uğrunda döyüşür. Onlarda heç bir hazırlıq yoxdur. Nə döyüş, nə də mənəvi-psixoloji hazırlıq. Düşmən ordusunun cəbhə xəttində yerləşən bölmələrində özbaşınalıq hökm sürür. Bunu gizlətməklə olmur. Ona görə də öz tarixi torpaqlarını işğaldan azad etmək istəyən Azərbaycan əsgərinin qarşısında heç bir qüvvə tab gətirə bilməzdi. Bu belə də oldu. Strateji ərazilərin azad edilməsində iştirak edən bir zabit kimi deyə bilərəm ki, düşmən sağ qalması üçün postunu, silahını, öz səngər yoldaşını atıb qaçırdı. Mən bütün bunların canlı şahidiyəm. Öz döyüş yoldaşını meydanda qoyub qaçan əsgərdən nə gözləmək olar ki?! Təbii ki, heç nə! Məsələnin maraqlı aspektlərindən biri də odur ki, ordumuz hələ gücünün əsas hissəsini düşmənə göstərməyərək onu belə təşvişə salmağı bacarıb. Düşmən, nəhayət, anlayır ki, onun qarşısında daha hazırlıqlı, dünyanın ən müasir silahları ilə təmin olunmuş Azərbaycan Ordusu dayanıb. O ordu ki, torpaqlarının işğalı ilə heç bir zaman barışmayıb. O ordu ki, Ali Baş Komandanın rəhbərliyi ilə xalqımızı daha böyük müjdəli xəbərlərlə sevindirəcək.

**Əsgər Elməddin Fərhadlı:**

- Sentyabrın 27-də düşmən bütün cəbhəboyu mövqelərimizi, eləcə də yaşayış məntəqələrimizi intensiv olaraq iriçaplı silahlardan və artilleriya vasitələrindən istifadə edərək atəşə məruz qoydu. Verilən "Həyəcan" siqnalı ilə toplanaraq düşmən hücumunun qarşısını almağa başladıq. Komandanlığın tapşırığı ilə biz də əks-hücuma keçdik. Gərgin döyüşlər başladı. Mənimlə eyni bölmədə xidmət edən dostum Fuad Novruzovla və digər əsgər yoldaşlarımızla artıq qızğın döyüşlərə atılmışdıq. Çiyin-çiyinə vuruşaraq sanki bir-birimizdən güc alırdıq. Düşmən güclü ordumuz qarşısında aciz idi. Əks-hücum nəticəsində düşmənin nəzarətdə saxladığı mühüm yüksəklikləri işğaldan azad edib, onların çoxlu sayda canlı qüvvəsini məhv etdik. Komandirlərimizin peşəkarlığı, əsgərlərimizin cəsarəti ilə uğurla irəliləyirdik. Düşməndən qisas alırdıq. Azərbaycan Ordusu qarşısında zəif olduğunu anlayan düşmən artıq çarəsiz qalmışdı. Ordumuzun gücü qarşısında tab gətirə bilməyən düşmən çıxış yolunu geri çəkilməkdə, mövqelərini qoyub qaçmaqda gördü. Tarixi torpaqlarımızdan qaçan düşmənlərimizi gördükdə şəxsi heyətdə daha da ruh yüksəkliyi yarandı. Onlara gələn köməyi də artilleriya qüvvələrimiz sərrast atəş zərbələri ilə tamamilə məhv etməyi bacardı. Hər kəs qürur hissi keçirirdi. Qısa vaxt ərzində strateji əhəmiyyətli yüksəklikləri və bir sıra yaşayış məntəqələrini düşməndən geri qaytardıq. Bu uğur Azərbaycan Ordusunun gücünü, qüdrətini, qələbə əzmini və xalq ilə ordu arasında birliyini nümayiş etdirdi. Ermənistan silahlı qüvvələri güclü bir ordu ilə qarşıqarşıya dayandığını dərk etdi. Onu da dərk etdilər ki, vətənpərvər Azərbaycan oğulları işğala sona çatdıracaq. İşğalda olan torpaqlarımızda bir nəfər də olsun düşmən qalmayacaq.



Azərbaycan əsgəri tezliklə düşmən üzərində böyük qələbə qazanacaq. Qələbə bizimlədir!

**Əsgər Fuad Novruzov:**

- Həmin gün düşmən artilleriyadan geniş istifadə edərək bizim mövqelərimizi və dinc əhalini intensiv atəşə tutmağa başlamışdı. Verilən tapşırığa əsasən biz də onlara adekvat cavab verərək, əks-həmlə ilə hücuma keçdik. Günorta saatlarında artıq işğalda olan bəzi yüksəklikləri düşməndən azad etməyi bacarmışdıq. Qısa müddət ərzində qoşunlarımızın bu qədər irəliləməsini görən düşmən özünü itirmişdi. Yaratdıqları təxribatın belə sərt cavabı olacağını bəlkə də təsəvvür etmirdilər. Onlar gördülər ki, qısa müddət ərzində bir neçə mövqe artıq bizim nəzarətimizdədir. İllərdir bu günü səbirsizliklə gözləyən, qisas hissi ilə alışıb yanan ordumuzun döyüş əzmi qarşısında çarəsiz qalan düşmən qaçırdı. Ermənilər nəinki silahlarını, döyüş texnikalarını, avtomobillərini, hətta zirehli jiletlərini, çantalarını da atıb qaçırdılar ki, tez canlarını qurtara bilsinlər. Döyüşlər zamanı ordumuzun hər bir əsgəri irəli atılmağa can atırdı. Qorxu bilməyən döyüşçü yoldaşlarımla doğma torpaqlarımıza doğru irəlilədikcə qürur hissi keçirirdik. Azad etdiyimiz mövqelərdə möhkəmləndiyimiz zaman müşahidə etdik ki, düşmənin dəstək bölmələri bir mövqedə cəmləşərək bizə zərbələr endirmək istəyirlər. Lakin artilleriyaçılarımızın çevikliyi və peşəkarlığı nəticəsində onların dəstələri tamamilə məhv edildi. Artıq azad etdiyimiz yüksəkliklərdə Azərbaycan bayrağı dalğalanırdı. Üçrəngli bayrağımızın o yüksəkliklərdə dalğalanmasını görmək hər birimizə böyük ruh yüksəkliyi bəxş etdi. Şanlı bayrağımızın müqəddəs torpaqlarımızda dalğalandığını gördükcə sevincimiz yerə-göyə sığmırdı. Sevincimizdən göz yaşlarımıza hakim ola bilmirdik. O anı heç bir zaman unutmaram. Ali Baş Komandanımızın verdiyi döyüş əmri ilə tez bir zamanda digər torpaqlarımızı da mənfur düşməndən azad edəcəyik. Əminliklə deyə bilərəm ki, Azərbaycan Ordusunun şəxsi heyəti rəhbərlik tərəfindən verilən bütün tapşırıqları yüksək bacarıq ilə yerinə yetirməyə qadirdir. Ordumuzda xidmət edən, torpaqlarımızın azadlığı uğrunda canını, qanını əsirgəməyən igid oğullar var. Düşmən bilməlidir ki, onlara ikinci bir şans verilməyəcək. Sülhə razı olmayan



düşmən məhv olmağa hazır olmalıdır. Hər birimiz xalqımıza böyük qələbə sevincini yaşadacağımız gün üçün xidmət edirik. Qarabağ bizimdir, bizim olacaq! O günə çox az qalıb!

**Əsgər Ruslan Qəribov:**

- Döyüşlər başladığı gündən hər birimizin qəlbi qələbə ilə döyünür. Tarix boyu xalqımız çox müharibələr görüb. Döyüşlərin hər biri tariximizdir. Burada, döyüş meydanında qalib döyüşlərin iştirakçısı olan atalarımızın, əcdadlarımızın qəhrəmanlıq ənənələrini bu gün bizlər davam etdiririk. Canımız, qanımız bahasına olsa da, Ali Baş Komandanımızın rəhbərliyi ilə tariximizə yeni bir qələbə əlavə edəcəyik. Azərbaycan əsgərinin bir amalı var - torpaqlarımızı mənfur düşməndən azad edərək xalqımızın Vətən həsrətinə son qoymaq. Güclü silahları, Vətən eşqi ilə döyünən ürəyi olan ordumuzun şəxsi heyəti qələbə qazanmağa qadirdir. Buna sübut olaraq sentyabrın 27-si düşmənin cəbhə boyu törətdiyi genişmiqyaslı təxribata cavab olaraq, Ali Baş Komandanın əmri ilə əks-hücum əməliyyatı keçirən ordumuz böyük uğurlara imza atdı. Əks-hücum zamanı düşmənin xeyli sayda şəxsi heyətini, zirehli texnikalarını darmadağın etdik. Canının dərdinə qalan, silahını atıb qaçan erməni əsgəri, erməni zabiti Azərbaycan Ordusunun gücünü bir daha gördü. Biz döyüşçülər arxa cəbhə ilə ön cəbhənin eyni vaxtda nəfəs ala bilməsindən güc aldıq. Azərbaycan Ordusu gücünü xalqının ona olan inamından, güvənindən alır. Döyüşlər başladığı ilk gündən xalqımızın ordusunun arxasında necə fəxrlə dayandığının hər birimiz şahidi olduq. Hər kəs əmin ola bilər ki, orduya olan bu diqqət və qayğı cavabsız qalmayacaq. Bizim borcumuzdur ki, torpaqlarımız uğrunda öldürməyi bacaraq. Çünki bu torpaqlar bizə əcdadlarımızdan qalan əmanətdir. Əmanəti isə göz bəbəyi kimi qorumaq hər birimizin vətəndaşlıq borcudur. Biz haqq savaşındayıq. Tez bir zamanda bu savaşdan qalib çıxacağıq, xalqımıza illərdir gözlədiyimiz Böyük Qələbə sevincini yaşadacağıq!

# Azərbaycan xalqı sizinlə qürur duyur

*Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanla təmas xəttində və sərhəddə sentyabrın 27-dən başlayan təxribatlar zamanı yaralanan, Silahlı Qüvvələrin Baş Klinik Hospitalında müalicə olunan hərbi qulluqçularla görüşüblər.*

*Qəzetimizin əməkdaşları hospitalda müalicə olunan döyüşçü yaralıların təəssüratlarını öyrəniblər.*



**Mayor Zaur Rəhimov:**

- Qüdrətli ordumuz xalqımızı, millətimizi qələbə xəbərləri ilə müjdələməkdədir. Qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatları uğurla davam edir. Müzəffər ordumuz cəbhənin Tərtər-Ağdam, Füzuli-Cəbrayıl və Murov dağı istiqamətində düşmən qoşunlarının işğalı altında olan vacib yüksəklikləri azad edib və son qarış torpaqlarımıza kimi azad etmək uğrunda döyüşləri davam etdirir.

Sentyabrın 27-də düşmən bütün cəbhə boyu yeni ərazilərimizi işğal etmək üçün hücuma keçdi. Həyəcan siqnalı verildi. Yüksək döyüş və mənəvi-psixoloji hazırlıqlı bölmələrimiz düşmənə layiqli cavab verdi. Düşmənin döyüş texnikasını və canlı qüvvəsini məhv edən ordumuz əsl qəhrəmanlıq sərgiləməkdədir. Azərbaycan Ordusu gücünü düşmənə bir daha sübut etdi.

Hal-hazırkı vəziyyət göstərir ki, ordumuzda aparılan ideoloji iş, mənəvi-psixoloji hazırlıq şəxsi heyətdə yüksək əhval-ruhiyyə və ruh yüksəkliyini ən yüksək səviyyədə təmin edib. Azərbaycan Ordusunun şəxsi heyəti döyüş tapşırığını layiqincə yerinə yetirir və bunun üçün bütün imkanlara malikdir. Baş verən döyüşlər bunu bir daha sübut edir.

Döyüşdə yaralanmalar danılmazdır. Sentyabrın 27-də əks-hücum əməliyyatları zamanı yaralanmışam. Hospitalda olduğum bu günlərdə gördüyüm tibbi qayğı ilə yanaşı, gənclərimizin döyüşlərə getmək üçün olan müraciətlərinə şahid olmağım da sağalmağıma müsbət təsir edir. Azərbaycan əsgəri Vətənin keşiyini çəkir, həkimlər Vətənin keşiyini çəkənlərin keşiyini. Mənim kimi döyüşdə yaralananları həyata qaytaran tibbi personalı heç zaman unutmayacağıq.

Belə çətin günlərdə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın biz yaralılarla görüşməsindən çox qürurlandıq. Göstərilən xüsusi diqqət və qayğıya görə özüm və yoldaşlarım adından dərin minnətdarlığımı bildirirəm və bir an öncə sağalaraq ön xəttə qayıtmaq istəyirəm.

**Kapitan Tural Feyziyev:**

- Sentyabrın 27-dən başlayan əks-hücum əməliyyatında yaralandım. Ordumuzun bölmələri əks-hücum əməliyyatına başlayanda minaatan batareyaya atəş dəstəyi vermək üçün arxa müşahidə məntəqəsində idim. Qoşunlarımız atəş mövqeyinə çatanda mən müşahidə məntəqəsinin yerini dəyişdim. Bu zaman yaralandım. Şəxsi heyətdə döyüş əzmi var. Hərbi andına sadiq olan əsgərlərimiz ruh yüksəkliyi ilə döyüşürlər. Cəbhədən aldığımız qələbə xəbərlərindən ruhlanıb, tez bir zamanda sağalıb döyüşləri davam etdirmək istəyirəm. Döyüşçü yoldaşlarımın, əsgərlərimin yanına tələsirəm. Xəbərim var ki, onlar döyüşləri əzmkarlıqla davam etdirirlər. Düşmən işğalında olan strateji əhəmiyyətli ərazilərimiz bölmələrimizin qətiyyətli hücumları sayəsində işğaldan azad olunub. Düşmənin çoxlu sayda canlı qüvvəsi məhv edilib. Erməni işğalçıları döyüş postlarını, silah və texnikalarını qoyub qaçırlar. Ordumuz tezliklə Böyük Qələbəni qazanacaq. Qarabağımız düşmən işğalından azad olunacaq. Tez bir zamanda sağlamlığıma qovuşmağım üçün əlindən gələn köməyi əsirgəməyən tibb personalına təşəkkürümü bildirirəm. Yaralıları ziyarətə gələn, diqqət və qayğısını bizdən heç zaman əsirgəməyən Azərbaycan Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya böyük təşəkkürlərimi çatdırıram.

**Baş leytenant Telman Dadaşov:**

- Sentyabrın 27-dən etibarən ordumuz Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan tarixinin ən şanlı səhifələrini yazır. Azərbaycan Ordusu əzəli və əbədi torpaqlarının azadlığı uğrunda döyüşür.

Neçə illərdir ki, Qarabağ bizə, biz onun başı qarlı, dumanlı dağlarına, yamyaşıl meşələrinə həsrətlə baxırdıq. Şuşa qalasını, İsa bulağını, Cıdır düzünü, Xarı bülbülü nisgillə yad edirdik. Neçə illərdir ki, Qarabağ bizdən ayrı düşüb, babalarımızın at oynatdıqları yurd yerlərinə ayaq basa bilmirdik. Ordumuzun, xalqımızın düşmən üzərində zəfər yürüşünə çıxacağı, üçrəngli bayrağımızı Qarabağ torpağına sancacağı gün bu gündür.

Hər bir azərbaycanlının ən müqəddəs arzusu - əzəli və əbədi torpaqlarımızın işğaldan azad olunması ordumuzun igid, mərd, qorxubilməz oğulları tərəfindən reallaşır. Bu arzunu Aprel döyüşlərində, Günnüt zəfərində düşmənə qan udduran ordumuzun qüdrəti gerçəkləşdirdi. Bu gün Vətən müharibəsi döyüşlərində düşməni ağır məğlubiyyətə uğradan ordumuz göstərdi ki, xalqımıza Böyük Qələbənin sevincini yaşatmağın bir addımlığındayıq...

Aparılan uğurlu əməliyyatların nəticəsidir ki, raket-artilleriya qoşunları və aviasiya vasitələri düşmənin komanda məntəqələrinə zərbələr endirir, çoxlu sayda canlı qüvvəsini, döyüş texnikasını və hərbi obyektlərini məhv etməkdə davam edir. Mən ordumuzun gücü, qüdrəti, əsgərlərimizin döyüş ruhunun yüksək olması ilə fəxr edirəm.

Sentyabrın 27-də yaralandım. İlk tibbi yardım edildikdən sonra Silahlı Qüvvələrin Baş Klinik Hospitalında müalicəm davam etdirilir. Tibbi personaldan çox razıyam. Dövlətimizin diqqət və qayğısı sayəsində bu tibb ocağının maddi-texniki bazası, müalicə-diaqnostika imkanları, kadr potensialı yüksək səviyyədədir. Silahlı Qüvvələrin Baş Klinik Hospitalı regionun ən böyük hərbi tibb müəssisəsidir.

Ali Baş Komandanımıza və birinci xanıma bizlərə verdiyi dəyərə görə minnətdarlığımı bildirirəm.

**Leytenant Rüstəm Həsənov:**

- İllərdir Azərbaycan Ordusunun zabit və əsgərləri bir arzu ilə xidmət edirlər. Düşmən işğalında olan əzəli və əbədi torpaqlarımızı azad etsinlər. Bu gün illərdir xəyalını qurduğumuz arzumuz həyata keçir. Döyüşlər gedir. Bu savaşda biz haqq tərəfdarıyıq. Bizim heç kəsin torpağında gözümüz yoxdur. Lakin öz torpaqlarımızın da işğalda qalmasına razı olmayacağıq. Bizim savaşımız haqq savaşıdır və bu savaşdan alnıaçıq, üzüağ çıxacağıq.

Sentyabrın 27-dən başlayan Vətən müharibəsində ordumuzun adekvat cavabının nəticəsidir ki, düşmən böyük itkilər verərək geri çəkilməyə məcbur oldu. Bu hücum diqqətlə, məsuliyyətlə qulluq edənləri heç də çaşdırmadı. Yüksək döyüş və mənəvi-psixoloji hazırlıqlı əsgərlərimiz qətiyyətlə, ruh yüksəkliyi ilə vuruşurlar. Gedən döyüşlərdə ordumuz bir daha öz üstünlüyünü sübut etdi. Bu döyüşlərin Azərbaycan Ordusunun şanlı hərb tarixində məxsusi yeri olacaq.

Yaralandığım üçün hospitalda müalicə olunuram. Burada quraşdırılmış avadanlıq dünyanın inkişaf etmiş ölkələri ilə eyni səviyyədədir. Mütəxəssislərimiz də böyük peşəkarlığa malikdirlər. Yaralılar həkim və tibb bacılarının səyi və əməyi nəticəsində sağalaraq Vətəni tam gücləri ilə qorumaq üçün öz xidmət yerlərinə qayıdırlar. Onlara dərin təşəkkürümü bildirir, nəcib, xeyirxah işlərində uğurlar, özümə isə tez bir zamanda sağalaraq Vətənin keşiyində öz yerimi tutmağı, xidmətimə qayıtmağı arzulayıram. Ali Baş Komandanımızın bizimlə görüşdə dediyi xilaskar əsgər olmanın qüruru ilə Qalib ordumun sıralarında xalqımı müjdələmək ən böyük arzumdur.

**Gizir Şəhriyar Allahyarov:**

- Döyüşümüzün ilk gününü belə xatırlayıram: 27 sentyabr səhər 7 radələrində düşmən yenidən təxribat törətdi. Ön və arxa mövqelərimizə həmişə olduğu kimi, bu dəfə də düşmən tərəfdən toplardan və minaatanlardan atəş açılmağa başladı. Cavab olaraq əks-hücum əmri verildi. Tank kolonları sıralanaraq qruplara bölündü. Erməni işğalçılarının minalanmış sahəsini keçib düşmənin müdafiəsini yardıq. Burada düşmənin onlarla canlı qüvvəsi məhv edildi. Sonra mövqelərimizdə möhkəmləndik. Üçrəngli bayrağımızı döyüş mövqeyinə sancdıq. Artilleriya atışından sonra erməni əsgərləri qaçmışdılar. Onlar qorxu içində idilər. Qışqırırdılar, döyüşmək istəmirdilər. Düşmən bütün əşyalarını, telefonlarını, silah-sursatını atıb qaçmışdı. Burada biz ermənilərin qondarma "soyqırımı"na həsr olunmuş kitablarına, "böyük Ermənistan" xəritəsinə rast gəldik. Düşmənin bütün postları darmadağın edilmişdi. Düşməndən qənimət olaraq rabitə vasitələrini, günəş panellərini götürdük, optik kabel rabitə vasitələrini məhv etdik. Tez bir zamanda sağalıb döyüşçü yoldaşlarımın sırasında olmaq istəyirəm. Ürəyim onların yanındadır. Sağalan kimi döyüşlərə davam edəcəm. Heyətimiz bu gün də döyüşür. Onlara qələbə arzulayıram. Burada bizə qayğı ilə yanaşan və müalicəmizi aparan tibb heyətinə sağ ol deyirəm. Hərbi Hospitalda biz yaralıları ziyarət edib səhhətimizlə yaxından maraqlanan Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığımı bildirirəm.

**Gizir Xəqani Məmmədov:**

- Vətən bizə - öz övladlarına güvənir və biz də Ali Baş Komandanın əmri ilə Vətənin bircə qarış torpağının da düşmən əlində qalmasına imkan verməyəcəyik. Nə qədər ki, ərazi bütövlüyümüz bərpa olunmayıb, nə qədər ki, nahaq tökülən qanların qisası alınmayıb, nə qədər ki, bu Vətəni bizlərə ərməğan edən babalarımızın ruhu narahatdır, biz öz haqq savaşımızdan geri dönməyəcəyik. Canımızdan keçərik, Vətənimizdən keçmərik.

Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü vətənpərvərlər üçün hər şeydən yüksəkdə dayanır. Xalq bu müqəddəs amal üçün mübarizə aparan ordumuzun bütün mərd oğulları ilə qürur duyur. Bu yolda qəhrəmancasına şəhid olan igidlərini heç zaman unutmur, xatirələrini ehtiramla yad edir.

Düşmən çox zəifdi, qorxaqdır. O, silahını, hərbi texnikasını, hətta meyitlərini belə qoyub qaçır. Tam əminliklə deyə bilərəm ki, Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə işğalda olan bütün torpaqlarımızı azad edəcək.

Sentyabrın 27-də yaralandığım üçün müalicəmi hospitalda davam etdirirəm. Burada yaralılara göstərilən tibbi yardımın səviyyəsi və aparılan müalicə tibb heyətinin yüksək peşəkarlığından xəbər verir. Xəsarət almış əsgərlərimizə yardım göstərən, onların tezliklə sağalmasına üçün əllərindən gələni edən tibb işçilərimizə sonsuz minnətdaram. Tez bir zamanda sağalıb döyüş yoldaşlarımın yanına qayıtmaq, xalqımıza Böyük Qələbə xəbərini müjdələyən qalib, qüdrətli ordumuzun hərbi qulluqçusu kimi xidmətimi davam etdirmək arzusundayam. Həmçinin ölkə başçımıza və birinci xanıma bizlərə göstərdiyi xüsusi diqqət və qayğıya görə minnətdarlığımı bildirirəm.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Xəyal Abbasov:**

- Mən də digər yaralılar kimi tezliklə sağalıb döyüşlərə davam edəcəm. Həkimlər tez bir zamanda sağalacağımı deyirlər. O günü səbirsizliklə gözləyirəm. İllərdir torpaqlarımızı işğal edən ermənilər heç bir müqavimət göstərmədən səngərlərini qoyub qaçırlar. Artıq erməni əsgəri də anlayıb ki, o torpaqların erməni millətinə heç bir aidiyyəti yoxdur. İşğalda saxladıqları torpaqların əsl sahibi azərbaycanlılardır. Ona görə də döyüşmürlər, qaçmağla canlarını qurtarırlar. Bu döyüş bizim haqq döyüşümüzdür. Qələbə bizim olacaq. Bizi müalicə edən həkimlərə, tibb bacılarına, ziyarətimizə gələn Prezidentimizə və Birinci vitse-prezidentimizə təşəkkürümü bildirirəm. Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevin biz yaralı döyüşçülərlə görüşü hər birimizdə böyük ruh yüksəkliyi yaratdı.

**Baş leytenant Günay TAĞIYEVA,**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Çağırışçılar: Ordu sıralarına yollanmaqdan qürur duyuruq

Prezident İlham Əliyevin avqustun 26-da imzaladığı Sərəncama əsasən, 2002-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1985-2001-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan



Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan vətəndaşlarının müəyyənləşdirilmiş qrafik əsasında xidmət yerlərinə göndərilməsinə başlanılıb.

Xidmətdən AZƏRTAC-a bildiriblər ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən çağırışçıların müddətli həqiqi hərbi xidmətə yola salınması oktyabrın 30-dək davam edəcək.

Gənc əsgərlər cəbhəyə deyil, müvafiq qoşun növlərinin hərbi hissələrinə - təlim mərkəzlərinə göndərilir və qarşıdakı üç ay müddətində orada təlimlər keçəcək, hərbin sirlərini öyrənəcək və sonra xidmətlərini təyin olunduqları yerlərdə davam etdirəcəklər.

Oktyabr çağırışçıları müddətli həqiqi hərbi xidmətə Azərbaycan əsgəri olmaq kimi şərəfli bir missiyanı yerinə yetirəcəkləri üçün qürur hissi ilə yola düşürlər.

"Azərbaycan Respublikası vətəndaşlarının 2020-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamının icrası ilə bağlı Masallı rayonunda gənclərin hərbi xidmətə yola salınması münasibətilə tədbir keçirilib.

Oktyabrın 2-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Masallı rayon şöbəsində çağırışçıların təntənə ilə hərbi xidmətə yola salınması mərasimində çıxış edənlər gənclərin həvəslə və böyük ruh yüksəkliyi ilə hərbi xidmətə yola düşdüklərini vurğulayıblar.

Gənc çağırışçı Məhəbbət Bayramov: "Bu gün ordu sıralarına yollanmaqdan qürur duyuram. Hər bir gənc kimi, mən də həqiqi hərbi xidmətdə lazımi bilgiləri öyrənib, Vətənin keşiyində ayaq-sayıq dayanacağam".

Digər çağırışçı Murad Nağıyev: "Bu gün yaşıdlarım kimi, mən də həqiqi hərbi xidmətə yola düşürəm. Valideynlərimi və dostlarımı əmin etmək istəyirəm ki, şərəflə xidmət edib onların yanına qayıdacağam. İndi Azərbaycanın güclü və qüdrətli ordusu var, bu orduda xidmət etməkdən şərəf duyacağam".




# Cəbhə bölgəsində təbliğat-təşviqat işləri əməliyyat şəraitinə uyğun həyata keçirilir

*Sentyabrın 27-də ağır döyüşlər başladığı ilk gündən cəbhə bölgəsində təbliğat-təşviqat işləri də əməliyyat şəraitinə uyğun təşkil edilərək həyata keçirilir.*

Ordumuzun qazandığı uğurların, döyüşçülərimizin rəşadətinin geniş ictimaiyyət arasında təbliği, Vətən torpaqlarının işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə igidlik göstərən hərbi qulluqçularının xalqa tanıdılması sistematik təşkil edilir və yerinə yetirilir.

Bu günlərdə Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının, Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzinin, "Azərbaycan Ordusu" qəzeti redaksiyasının əməkdaşları döyüş bölgəsinə ezam edilib. Cəbhə boyu zonada quraşdırılan səyyar mətbəələrdə "Sən qalib gələcəksən!", "Qalibiyyət döyüşü" və "Qələbə uğrunda" təşviqat vərəqələri, "Azərbaycan Ordusu" qəzetinin xüsusi buraxılışları, bukletlər hazırlanır, cəbhədə olan şəxsi heyət və cəbhə boyu zonada yerləşən yaşayış məntəqələrinin sakinləri arasında yayılır.

Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzi tərəfindən 4 təbliğat-təşviqat qrupu yaradılıb. Həmin qruplar veteranların, ictimaiyyət nümayəndələrinin şəxsi heyət qarşısında çıxışlarını təşkil edir və konsert proqramlarını təqdim edirlər. Bundan əlavə səsgücləndirici maşınlar vasitəsilə ümummilli lider Heydər Əliyevin və Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordumuz haqqında çıxışları, hərbi vətənpərvərlik mahnıları və döyüşlər barədə operativ məlumatlar cəbhə boyu zonadakı yaşayış məntəqələrində səsləndirilir, vətənpərvərlik mövzusunda bədii və sənədli filmlər nümayiş olunur.

Bu tədbirlər döyüşən əsgər və zabitlərin mənəvi-psixoloji durumuna müsbət təsir göstərir, döyüş əzmini, qələbə ruhunu daha da artırır, mülki əhali tərəfindən ruh yüksəkliyi və rəğbətlə qarşılanır.

# Hərbi hissədə ideoloji tədbir keçirilib

Təsdiq olunmuş tədbirlər planına uyğun olaraq "N" hərbi hissəsində hərbi təlim toplanışına cəlb olunan hərbi vəzifəlilərin mənəvi-psixoloji hazırlığının yüksəldilməsinə və orduda ideoloji işin gücləndirilməsinə yönəlik tədbir keçirilib.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə keçirilən tədbirdə əvvəlcə ulu öndər Heydər Əliyev və ərazi bütövlüyümüz, müstəqilliyimiz uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Tədbirdə çıxış edənlər Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı törətdiyi hərbi təxribatın qarşısının şanlı ordumuz tərəfindən layiqincə alındığını şəxsi heyətin diqqətinə çatdırıblar. Vurğulanıb ki, düşmənə qarşı əks-hücum zamanı işğalda olan bir sıra strateji əhəmiyyətli ərazilərimizin işğaldan azad olunması Azərbaycan Ordusunun və Azərbaycan əsgərinin gücünü bütün dünyaya nümayiş etdirdi. Qeyd edilib ki, düşmən təxribatı nəticəsində itkilərimiz olsa da, Ali Baş Komandanın da qeyd etdiyi kimi, onların hər birinin qisası qüdrətli ordumuzun şəxsi heyəti tərəfindən layiqincə alınır, alınacaq.

Mərasimin bədii hissəsində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi tərəfindən şəxsi heyətə hərbi vətənpərvərlik mövzusunda musiqilər ərmağan edilib.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin təqdim etdiyi videoçarxda ordumuzun və xalqımızın döyüş ruhunun sarsılmazlığı əks olunub

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-də səhər saatlarından başlayaraq ordumuzun mövqelərini və yaşayış məntəqələrimizi ağır artilleriya silahlarından atəşə tutması, düşmənin bu təxribatlarına qarşı bölmələrimizin uğurlu əks-həmlə əməliyyatı, eləcə də xalqımızın igid övladlarının Vətənimizin ərazi bütövlüyünün bərpası uğrunda müharibəyə tam hazır olması ilə bağlı növbəti videoçarx paylaşıb.



Nazirliyin Mətbuat Xidmətindən AZƏRTAC-a daxil olan videoçarxda əvvəlcə düşmənin yaşayış məntəqələrimizi, dinc əhalini hədəfə alması nəticəsində mülki şəxslər arasında ölən və yaralananların olduğu, əhalinin əmlakına külli miqdarda ziyan dəyməsini əks etdirən görüntülər yer alıb.

Bundan başqa, videoçarxda Azərbaycan Ordusunun əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə düşmənə qarşı həyata keçirdiyi uğurlu əks-həmlə əməliyyatı nəticəsində düşmənə sarsıdıcı zərbələr vurması qeyd olunub. Həmçinin ölkəmizdə qismən səfərbərlik elan olunması barədə Prezident, Ali Baş Komandan İlham Əliyevin Sərəncamına əsasən, ölkəmizdə on minlərlə igid Vətən övladının düşmənə layiqli cavab vermək, ərazilərimizi işğaldan azad etmək üçün böyük ruh yüksəkliyi ilə ordu sıralarına qoşulduğu diqqətə çatdırılıb.

Videoçarx Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!" sözləri ilə başa çatır.

# Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində növbəti brifinq keçirilib



Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi tərəfindən oktyabrın 1-də Azərbaycan Respublikasında akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün Azərbaycanı qabaqlayıcı tədbirlər görməyə vadar edən hadisələr haqqında brifinq verilmişdir. Əlavə olaraq, işğal olunmuş ərazilərdə həyata keçirilən əməliyyatların gedişatı, düşmən qüvvələrinə vurulmuş ziyan və digər məsələlər haqqında da qonaqlar məlumatlandırılmışdır.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, brifinqdə həmçinin mülki əhali və infrastruktura qarşı yönəlmiş təxribat fəaliyyətləri diqqətə çatdırılmışdır. Qeyd edilmişdir ki, Ermənistan tərəfi beynəlxalq humanitar qanunlara və prinsiplərə məhəl qoymayaraq, məqsədli şəkildə qoşunların qarşıdurma xəttindən xeyli uzaqda olan mülki yaşayış məntəqələrini hədəfə alaraq artilleriya atəşinə tutur.




Əlavə olaraq, sosial media vasitəsilə ermənilərin yaydıqları saxta xəbərlər və həqiqətləri əks etdirməyən məlumatlar barəsində də məlumat verilmişdir.

# "Ermənistan cəbhəyə qadınları göndərir"

Əldə olunan məlumata əsasən, son günlər davam edən şiddətli döyüşlər nəticəsində xeyli itki verən düşmən ciddi şəkildə şəxsi heyət çatışmazlığı ilə üzləşir. Buna səbəb çoxlu sayda itkilərlə yanaşı, Ermənistan silahlı qüvvələrinin bir sıra ön xətt bölmələrinin şəxsi heyətində ruh düşkünlüyünün müşahidə olunması, bir çox hərbi qulluqçunun isə, ümumiyyətlə, döyüşdən imtina etməsidir.

Bunu Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı AZƏRTAC-a açıqlamasında deyib.

V.Dərgahlı bildirib ki, itkilərinin gündən-günə artması və ehtiyat qüvvələrinin az olması Ermənistan Müdafiə Nazirliyini ölkə qadınlarına müraciət etməyə vadar edib. Ermənistan Müdafiə Nazirliyi tərəfindən artıq qadın batalyonu yaradılıb və hazırda komplektləşdirilir.

# Düşmən xeyli sayda texnikasını və silah-sursatını döyüş mövqelərində tərk edərək qaçıb

Azərbaycan Ordusunun sentyabrın 27-dən başlayaraq keçirdiyi uğurlu əks-hücum əməliyyatları nəticəsində işğaldan yeni azad edilən ərazilərimizin görüntüləri yayılıb.

Görüntülərdə Azərbaycan Silahlı Qüvvələrinin hərbçiləri tərəfindən düşmən ordusuna məxsus silah-sursatın ələ keçirilməsi əks olunub. Kadrlardan görünür ki, düşmən xeyli sayda texnikasını və silah-sursatını döyüş mövqelərində tərk edərək qaçıb. Hazırda Azərbaycan Ordusu işğalda olan digər ərazilərin azad edilməsi istiqamətində əməliyyatları davam etdirir.

Ağdərə istiqamətində qoşunlarımız Madagiz ətrafındakı hakim yüksəklikləri azad edib və bu məntəqəni nəzarətdə saxlayır. Cəbrayıl-Füzuli istiqamətində qoşunlarımız düşmənin müqavimətini qıraraq onu geri çəkilməyə məcbur edib və irəliləməyə nail olub. Murov dağı istiqamətində də əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır. Döyüşlərdə əldə etdiyimiz uğurlar və müxtəlif istiqamətlərdə hakim mövqelərin azad olunması Azərbaycan Ordusunun şəxsi heyətinin yüksək döyüş ruhunu və qələbə əzmini daha da artırır.

Ötən gün ərzində Azərbaycan Ordusu müəyyən olunmuş istiqamətlərdə irəliləyərək yeni dayaq məntəqələrini azad etməklə ərazini düşmən qüvvələrdən təmizləyib.



Döyüşlərdə düşmənin xeyli sayda canlı qüvvəsi, hərbi və digər döyüş texnikası məhv edilib.

Sentyabrın 27-dən oktyabrın 2-si saat 20.00-dək düşmənin 230-dək tank və digər zirehli texnikası, 250 ədəd artilleriya, yaylım atəşli raket sistemləri, minaatan, 38 ədəd hava hücumundan müdafiə vasitələri, 10 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi, 7 silah-sursat anbarı, 130-dan artıq avtomobil texnikası, 1 ədəd "S-300" zenit-raket kompleksi məhv edilib.

İşğalçı Ermənistan silahlı qüvvələrinin bölmələri rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı zərbələri qarşısında duruş gətirməyərək nəinki öz mövqelərini, hətta döyüş bayraqlarını də qoyub qaçır.

Belə ki, Ermənistan silahlı qüvvələrinin 193-cü desant hücum taborunun hava endirim komanda birliyinin döyüş bayrağı ələ keçirilib.

Döyüş bayrağı hər bir hərbi hissənin şərəf və qeyrət rəmzidir. Bu bayraq aid olduğu hərbi hissə ilə birlikdə döyüş əməliyyatları bölgəsində olmalıdır. Hərbi hissənin bütün şəxsi heyəti döyüş bayrağını fədakarlıq və mərdliklə qorumalı, onun ələ keçirilməsinə yol verməməlidir. Döyüş bayrağı itirildikdə onun məxsus olduğu hərbi hissə ləğv edilməlidir.

Düşmənin 193-cü desant hücum taborunun hava endirim komanda birliyinin döyüş bayrağı cəsur Azərbaycan əsgərinin ayaqları altındadır. Bu bir daha sübut edir ki, əgər Ermənistan ordusu Azərbaycanın əbədi və əzəli torpaqlarından geri çəkilməsə, onun işğal olunmuş ərazilərimizdəki digər hərbi hissə və bölmələrini də eyni aqibət gözləyir.

"Azərbaycan Ordusu"

# Hulusi Akar: İşğalçı Ermənistanın hücumlarına qarşı sonadək azərbaycanlı qardaşlarımızın yanındayıq

Ermənistan qardaş Azərbaycanın torpaqlarının 20 faizini, o cümlədən Dağlıq Qarabağ və ətrafındakı 7 rayonu artıq 30 ilə yaxındır ki, işğal edib. Bu işğal nəticəsində 1 milyondan çox azərbaycanlı doğma yerlərindən didərgin salınıb, 20 min insan şəhid olub, 5 min nəfərin taleyi barədə hələ də xəbər yoxdur. Xocalı soyqırımının da yaddaşlarımızdakı yeri hələ çox təzədir.

AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar bildirib.

Beynəlxalq hüquq çərçivəsində qəbul edilən qərarlara, Azərbaycanın bütün diplomatik və sülhyönümlü səylərinə baxmayaraq, problemin hələ də həll olunmadığına diqqət çəkən nazir deyib: "Ermənistan BMT-nin də qərarları daxil olmaqla beynəlxalq hüququ tapdayaraq işğalı və Azərbaycana qarşı hücumlarını hələ də davam etdirir. Törətdikləri cinayətlərə görə cəza almayan, əksinə, zaman keçdikcə daha da simasızlaşan Ermənistan müxtəlif vaxtlarda Azərbaycana qarşı bir çox təxribatlar törədib".

Türkiyənin hər zaman zülmə qarşı çıxış edən dövlət olduğunu bildirən nazir deyib: "Can qardaşlarımızın haqlı davasında, öz torpaqlarını geri qaytarmaq mübarizəsində sonuna qədər yanında olmağa davam edəcəyik. Bizim tək dərdimiz sülh, qardaşlıq və yaxşı qonşuluq əlaqələri, qonşularımızın da eyni şəraitdə yaşamasına töhfə verməkdir. Bu əzm və qətiyyətlə işğalçı Ermənistanın hücumlarına qarşı da sonadək azərbaycanlı qardaşlarımızın yanındayıq. İllərdir Azərbaycanın Dağlıq Qarabağdakı haqlı davasına həll yolu təklif etməyənlərin atəşkəs çağırışları səmimi olmadığı kimi, inandırıcı da deyil".

# Vətəndaşlarımızın nəzərinə!

Azərbaycan Ordusu dövlətimizin, şəxsən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunub. Şəxsi heyətin təchizatı, təminatı və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində fəaliyyətlər bu gün də davam etdirilir.

Bildiririk ki, son günlər Azərbaycan Ordusunun ön xətt bölmələrinə müxtəlif növ yardımların edilməsi ilə bağlı xeyli sayda müraciət daxil olur.

Müdafiə Nazirliyi ordumuza göstərilən diqqət və qayğıya görə xalqımıza dərin minnətdarlığını bildirir. Hazırda Azərbaycan Ordusunun hərbi hissələri, xüsusilə də ön xətt bölmələri bütün təminat növləri ilə tam təmin olunub və əlavə yardıma ehtiyac yoxdur. Azərbaycan əsgərinin yalnız xalqımızın mənəvi dəstəyinə ehtiyacı var ki, bu da daim göstərilir.

Eyni zamanda bildiririk ki, ayrı-ayrı vətəndaşlarımız, təşkilat və müəssisələr Müdafiə Nazirliyinə müraciət etmədən birbaşa hərbi hissələrə gedir və müxtəlif növ yardımlar aparırlar. Bu da bəzi hallarda pərakəndəliyə, şəxsi heyətə çatdırılan ərzaq məhsullarının xarab olmasına və israfçılığa səbəb olur. Ərzaq məhsullarının qida təhlükəsizliyi nəzarətindən keçmədən şəxsi heyətə verilməsi isə hərbi qulluqçuların sağlamlığı üçün ciddi təhlükə yarada bilər.

Bu sahədə fəaliyyətin mərkəzləşdirilmiş qaydada həyata keçirilməsi və yardımın planlı şəkildə hərbi hissələrə çatdırılması məqsədilə Müdafiə Nazirliyində aşağıda əlaqə nömrələri qeyd edilən müvəqqəti qaynar xətt fəaliyyət göstərir:

**+994 (012) 406-85-43 və +994 (012) 406-59-33.**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 570
Nüsxə 4000